

***Beynəlxalq imicimiz çox müsbətdir. Bunun müxtəlif amilləri vardır. Bir daha demək istəyirəm ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı, prinsipial mövqeyi, ədaləti, hüququ hər şeydən üstün tutmağımız, eyni zamanda, əlbəttə ki, bizim diplomatik orqanların uğurlu fəaliyyəti də burada çox mühüm rol oynamışdır.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycanın beynəlxalq əlaqələri genişlənir

***Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti müstəqil, ədalətli və düşünülmüş xarici siyasət xətti həyata keçirir. Xalqımızın milli maraqlarına xidmət edən bu kurs ölkəmizin regionda və bütün dünyada rolunun və nüfuzunun yüksəlməsinə səbəb olmuşdur. Bu gün Azərbaycan dünya birliyində xüsusi yeri və hörməti olan azad, sivil və demokratik dövlətlərdəndir.***

Qeyd etmək lazımdır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən bir müddət sonra, daha dəqiq desək, 1992-ci ilin martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilmişdir. Bu, Azərbaycan dövlətçiliyinin müasir tarixində olduqca mühüm hadisədir. Rəsmi Bakı o vaxtdan ötən qısa zaman kəsiyində beynəlxalq təşkilatlarla geniş əlaqələr qurmuş, sıx və səmərəli əməkdaşlığa nail olmuşdur.

Xatırladaq ki, 1990-cı illərin əvvəllərində Ermənistanın təcavüzü nəticəsində ölkəmizdə gərgin ictimai-siyasi vəziyyət yaranmışdı. Torpaqlarımızın bir hissəsi işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd yerlərindən qovularaq qaçqın və məcburi köçkünə çevrilmişdi. Ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi yaranmış, Azərbaycan bir dövlət olaraq məhv olmaq təhlükəsi ilə üzləşmişdi.

Belə bir ağır dövrdə xalqın israrlı çağırışları ilə Azərbaycanda yenidən siyasi hakimiyyətin sükanı arxasına keçən dahi siyasətçi Heydər Əliyev, ölkəmizdə, ilk növbədə, ictimai-siyasi sabitliyin təmin edilməsinə nail oldu. Bundan sonra gənc, müstəqil dövlətimizin daxili və xarici siyasətinin prioritetləri müəyyən edildi. Azərbaycan iqtidarı inamla milli maraqlarımızı qoruyan və müdafiə edən xarici siyasət kursu həyata keçirməyə başladı.

Qeyd etmək lazımdır ki, həmin çətin dövrdə ölkəmizdəki qaçqın və köçkünlərin ağır şəraitini yaxşılaşdırmaq üçün dünya birliyinin dəstəyinə ehtiyac vardı. Dünya birliyi bu istiqamətdə Azərbaycana dəstək verə bilərdi. Ulu öndərin rəhbərliyi ilə ölkəmizin BMT, eləcə də bir çox digər nüfuzlu beynəlxalq qurumlarla sıx əlaqələrinin qurulması istiqamətində ciddi cəhdlər göstərildi.

Azərbaycan iqtidarı tərəfindən həyata keçirilən bu gərgin səylər qısa zaman kəsiyində öz müsbət nəticələrini verdi. Belə ki, BMT-nin Baş Assambleyası 1993-cü ilin sonunda keçirdiyi 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə qəbul etdi.

Rəsmi Bakının BMT ilə hərtərəfli əlaqələri və əməkdaşlığı davamlı olaraq güclənirdi. Azərbaycanın torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğal edilmişdi. Bu həqiqəti dünya birliyinin nəzərinə çatdırmaq, o vaxtlar üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində ədalətli həllinə nail olmaq lazım idi. Erməni lobbisi hər vəchlə buna mane olmağa çalışırdı.

Milli Məclisin deputatı Tahir Rzayev həmin çətin günlər barədə söz düşəndə dedi ki, bütün çətinliklərə baxmayaraq, Azərbaycan dövləti bu istiqamətdə ciddi diplomatik səylər ortaya qoydu. 1993–1996-cı illər ərzində BMT-nin Təhlükəsizlik Şurasının sədri və BMT Baş katibi Azərbaycan Respublikasının ərazi bütövlüyünü təsdiqləyən və münaqişənin sülh yolu ilə həll olunmasına yönəlmiş bir sıra bəyanatlarla çıxış etdilər.

Təqdirəlayiq haldır ki, Azərbaycan rəsmiləri ən yüksək səviyyədə BMT Baş Assambleyasının işində fəal iştirak edirdilər. 1994 və 1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyalarında ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının nümayəndə heyətinə başçılıq etmişdir. Bundan başqa dahi siyasətçi Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin Zirvə Toplantısında iştirak etmişdir.

Ulu öndərin xalqımızın parlaq gələcəyinə xidmət edən siyasi kursu onun siyasi irsinin ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildi. Hələ 2003-cü ilin sentyabrında o vaxt Azərbaycan Respublikasının Baş naziri olan cənab İlham Əliyev BMT Baş Assambleyasının 58-ci sessiyasında milli sosial-iqtisadi inkişaf, regional və beynəlxalq təhlükəsizliyə qarşı təhdidlərə bağlı parlaq və dərin məzmunlu çıxışı olmuşdur.

Bu konseptual çıxış qlobal səviyyədə müsbət əks-səda doğurmuşdur. Yeri gəlmişkən, 2004-cü ilin sentyabrında öz işinə başlayan BMT Baş Assambleyasının 59-cu sessiyasının ümumi müzakirələrində iştirak edən Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başçılıq etmişdir.

Azərbaycanın BMT ilə sıx əlaqələri davamlı olaraq genişlənmişdir. Fakt budur ki, ölkəmiz BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Bunların sırasında BMT-nin İnkişaf Proqramı, UNESCO, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və s. qurumlar vardır.

Fəxrlə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin müdrik liderliyi ilə müstəqil Azərbaycan Respublikası ilk dəfə 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının iki illiyə qeyri-daimi üzvü seçilmişdir. Bu fakt ölkəmizin dünyada artan nüfuzuna dəlalət edir. Azərbaycan Təhlükəsizlik Şurasında fəal fəaliyyəti ilə yadda qalmışdır.

Azərbaycan beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Rəsmi Bakı həmçinin BMT-nin XXI əsrdə olacaq təhdid və problemlərə qarşı mübarizə apara bilməsi üçün BMT çərçivəsində islahatların aparılması ideyasını da dəstəkləyir.

Bakının sivil, demokratik dünya ilə sıx əməkdaşlığı ilbəil genişlənir. Ölkəmiz 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilmişdir. Son illər Bakının Avropa İttifaqı, ATƏT və digər nüfuzlu təşkilatlar ilə əlaqələri də güclənmişdir. Azərbaycanın Avropa ölkələri ilə əməkdaşlığı qarşılıqlı inam və etimad əsasında qurulmuşdur.

Müstəqilliyini bərpa etdiyi ilk günlərdən bu vaxta qədər Azərbaycanla dünyanın müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən maddi və mənəvi dəstək göstərilmişdir. Qurumun, demək olar ki, bütün üzvləri Ermənistanın Azərbaycana qarşı işğalçı, təcavüzkar siyasətini pisləmişdir. Bu gün Azərbaycan İƏT-in ən nüfuzlu ölkələrindən birinə çevrilmişdir. Rəsmi Bakı bu qurumla hərtərəfli əməkdaşlığını bundan sonra da uğurla davam etdirmək əzmindədir.

Azərbaycan 2019-cu ildən yüz iyirmidən çox ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatına sədrlik edir. Hərəkatın dövlət və hökumət başçılarının 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilmiş 18-ci zirvə görüşü zamanı Azərbaycan quruma sədrliyi qəbul edib. Prosedura görə, Azərbaycanın sədrlik müddəti 2022-ci ildə bitməli idi, lakin Qoşulmama Hərəkatına üzv dövlətlərinin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyə başladıqdan sonra hərəkatın beynəlxalq aləmdə nüfuzunun, təsirinin gücləndirilməsi, hərəkat üzvlərinin marağının, beynəlxalq hüququn və ədalətin müdafiəsi istiqamətində ciddi işlər həyata keçirib. Koronavirus pandemiyasının törətdiyi fəsadlara baxmayaraq, Azərbaycan vəziyyətə çevik və adekvat reaksiya verərək, sədrliyini müvəffəqiyyətlə həyata keçirməkdə davam edir.

Bu yerdə bir məqamı da xüsusilə qeyd etmək lazımdır. O da budur ki, Azərbaycan dövləti öz xarici siyasətində nüfuzlu beynəlxalq qurumlarla sıx əməkdaşlıq ilə yanaşı, çağdaş dünyanın aparıcı dövlətləri ilə ikitərəfli əlaqələrin güclənməsinə də böyük önəm verir. Rəsmi Bakının müasir dünyanın bir çox güc mərkəzləri ilə əlaqələri daim genişlənir. Bu gün ölkəmiz Böyük Britaniya, ABŞ, Fransa, Almaniya və s. böyük dövlətlərlə bərabərhüquqlu əməkdaşlıq qurmuşdur. Azərbaycanın qardaş Türkiyə, eləcə də İran və Rusiya kim dost, qonşu ölkələr ilə hərtərəfli əlaqələri daim genişlənir.

Azərbaycan xalqının İkinci Qarabağ müharibəsindəki parlaq qələbəsi Cənubi Qafqaz regionunda yeni reallıqların yaranmasına səbəb olmuşdur. Xalqımızın Vətən müharibəsindəki möhtəşəm zəfəri ilə təkcə Azərbaycana deyil, bütövlükdə yaxın və uzaq coğrafi məkanda yerləşən ölkələrə və onların xalqlarına sıx iqtisadi, ticari, mədəni və humanitar əlaqələr üçün geniş imkanlar açılmışdır.

Bu tarixi fürsəti dəyərləndirmək, bölgənin inkişaf və tərəqqisini sürətləndirmək üçün regionda təmsil olunan dövlətlərin liderlərindən, əlbəttə, yüksək siyasi fəhm və bəsirət, dərin zəka, təfəkkür tələb olunur. Azərbaycan dövləti və onun lideri, Prezident İlham Əliyev məhz belə dövlət xadimlərindən və tarixi şəxsiyyətlərdəndir. Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsində olduğu kimi, postmüharibə dönəmində də Cənubi Qafqazda baş verən proseslərə konseptual yanaşma nümayiş etdirir.

Görünən budur ki, rəsmi Bakının xalqımızın milli maraqlarına xidmət edən uğurlu xarici siyasət xətti müstəqil Azərbaycanı dünyada nüfuzlu söz sahibinə çevirmişdir. Düşünürük ki, ölkəmizin hazırkı mürəkkəb beynəlxalq münasibətlər sistemində tutduğu ədalətli və prinsipial mövqeyi etibarlı dostlarımızın və tərəfdaşlarımızın sayının daha da artmasına səbəb olacaqdır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***